Deyir: mənəm birinci.
Qızıl bir yanda qalır,
Araya dava salır...
Büllur bərq vurub yanır,
Parlaq gümüş odlanır.
Gözəllik rəqabəti
Daş-qaşları alıbdır,
Birincilik həvəsi
Yaman qovğa salıbdır.
Siz ey qiymətli daşlar,
Ey cavahir, ey gövhər,
Sizi yerdən qaldıran
İnsan deyilmi məgər?
Alt qatlardan çıxarıb
Sizə şöhrət gətirən,
Sizi faydalı edib,
Həyata rövnəq verən
Bilin, *insandır*, *insan*.
İnsansız daşların da
İşi olmazdı asan...
Daşları canlı edən,
Şöhrətli-şanlı edən
İnsanın zəkasıdır.
Daşları canlandıran
İnsanlıq dünyasıdır.
Sizi insanlar tapır,
Sizi insan yüksəldir.
Sizi insanın əli
Gözəl edir, düzəldir!

BALALAR ÜÇÜN

LALƏ

Lalə günəşlə durur,
Lalə günəşlə yatır,
Anasını oyadır,
Atasını oyadır.

Lalə tezdən oyanır
Dodağında gülüşü,
Pəncərədən səsləyir
Yuvada yatan quşu.

Lalə oyanan kimi
Sanki bahar oyanır.
Bağçada əlvan güllər,
Bağda quşlar oyanır.

Dörd yaşına girəcək
Lalə hələ gələn il.
Lalə yatan otaqda
Saat da lazım deyil.

O, hamını qaldırıb
Səhər tezdən oyadır.
Lalə günəşlə durur,
Lalə günəşlə yatır.

BİR CÜT XURMA AĞACI

Elə bil ki, əkizdir
Bir cüt xurma ağacı.
Dayanıbdır yanaşı
Sahildə bu cüt bacı...

Ayağını dalğalar
Yalayır ağacların.
Saçlarını yağışlar
Darayır narın-narın.

Onlara heyran olub
Elə bil Qara dəniz.
Bu körpə cüt bacılar –
Həm mehriban, həm əziz...

Elə bil ki, əkizdir
Bir cüt xurma ağacı.
Dayanıbdır yanaşı
Sahildə bu cüt bacı...

XAÇBULAQDA

Ağac bitməz,
Meşə yoxdur
Xaçbulaqda, Xaçbulaqda.
Sarı çiçək, oymadərən
Yaman çoxdur Xaçbulaqda.

Bulaqları buz kimidir,
Gecəsi gündüz kimidir.
Dağ döşləri düz kimidir
Xaçbulaqda, Xaçbulaqda.

Dağ çiçəyi yaman boldur,
Dağ yolu nə gözəl yoldur.
Havanı sinənə doldur
Xaçbulaqda, Xaçbulaqda.

Çiçəkli, səfalı yaylaq!
Qonşun Pirsultan, Müşavaq...
Heç doymadı gözüm ancaq
Xaçbulaqda, Xaçbulaqda.

DAŞKƏSƏN

Dağ üstündə dağ şəhərim!
Təmiz, ağappaq şəhərim!
Geniş küçə, açıq meydan,
Yaratmışdır səni insan.
Dağlar necə darıxardı
Sən olmasan, sən olmasan!
Mənim gözəl dağ şəhərim,
Təmiz, ağappaq şəhərim!
Gecə çıraqların yanır,
Dərələr nura boyanır,
İşıqlanır dağ şəhərim!
Təmiz, ağappaq şəhərim!

QIZLAR QUŞU

Qızlarquşa, qızlarquşu
Harda keçirdin bu qışı?
Üşüdümü qanadların,
Qaldınmı altında qarın?
Yoxsa uçdun uzaqlara
İsti, günəşli diyara.
Nələr gördün, nələr gördün,
Xoş nəğmənlə söylə, görək.
Yaxşıdırmı, Qızlarquşu
Qanadlanıb uça bilmək?

QARA TÜKLÜ QU QUŞU

Qara tüklü qu quşunun
Balası tünd qəhvəyidir.
Yanında vardır birisi,
Heç bilmirəm o nəyidir.

Qu quşunun boynu uzun,
Dimdiyi də qıpqırmızı,

O dalınca üzənlər də
Ya oğludur, ya da qızı.

Qu quşunun ağı gözəl,
Qarası da yaraşıqlı,
Onun boynu nə göyçəkdir,
Gözləri də – nə işıqlı!

Asta-asta üzüb keçir,
Yanında da balaları.
Elə bil ki, süzüb keçir
Göl aşağı, göl yuxarı...

BOY ÇİÇƏYİ

Dağların dəli boyu,
Hardan gəldin arana.
İçsəydin bulaq suyu,
Qalmazdın yana-yana.

Boy çiçəyi rəngi sarı,
Yarpaqları yaşıl-yaşıl.
Sən dağlara çəkil barı,
Sənə bu dağlar yaraşır.

Boy çiçəyi, boy çiçəyi,
De, sən hara, aran hara?
Dağ ətrin, dağ havasını
Gətirdinmi sən dostlara?

SİTARƏ

Səhər tezdən Sitarə
Güllərini sulayır;
Çalışır ki, bağçanı
Basmasın yonca, çayır.

Təmizləyir alaqdan
Çiçəkləri, gülləri,
Görün nə zəhmətkeşdir
Sitarənin əlləri.

Kiçik qardaşı Azad
Ona köməyə gəlir;
Sitarə çox işləyib,
İndi bir az dincəlir.

FƏRİD

Fərid çox yerə gedir,
Fərid heç kimdən qaçmır.
Yatanda rahat yatır,
Vurub üstünü açmır.

Fərid dənizdə çimir.
Vaxtından qabaq yemir.
Dəcəl oğlan deyil o,
Həmi Fəridi sevir.

Top kimi oğlandır o,
Yıxılsa da ağlamaz.
Qorxaq deyildir, ancaq
Arıdan qorxur bir az.

KƏKLİKOTU

Kəkotu hər yanda bitməz,
Meşədə, aranda bitməz.
Çəkilər yüksək dağlara,
Havası seyrək dağlara.

Məskənidir göy yamaclar,
Sevməz ağac kölgəsini.

Dağ başında dinləyər o,
Kəkliklərin xoş səsini.

Çiçəklərin arasında
Balacadır boyu bir az.
Kəkotunun iyi xoşdur,
Quruduqca ətri qaçmaz.

SEVİNC VƏ GÜLŞƏN

Bir cüt bacıdır
Sevinclə Gülşən,
Bu qəşəng qızlar
Yaşayırlar şən.

Sevinc bir az küsəndə
Gülşən də küsüb gedir.
Sevinc hər nə eləsə
Gülşən də onu edir.

Sevinc bir az acanda
Gülşən: – Acmışam – deyir...
Anamla yatacağam –
Sevinc – bu axşam – deyir.

Gülşən deyir: – Anamı
Mən heç kəsə vermərəm.
Lap atam özü gəlib
Mənə desə, vermərəm.

Sevinc deyir: – İkimiz
Gəl yataq anamla biz...
Barışıb oynayırlar,
Mehriban dostdur onlar.

Bir cüt bacılar
Sevinclə Gülşən,
Bu qəşəng qızlar
Yaşayırlar şən.

GÜLLƏR

Güllər çiçək kimidir,
Saçı ipək kimidir.
Gül də onun yanında
Bir az qəşəng kimidir.

Güllü, güllü, Güllərim,
İpək telli Güllərim.
Çiçək qızlar içində
Şirin dilli Güllərim.

Güllər nəğməylə səslər,
Çəmənlərin gülünü.
Güllər nə yaxşı bilir
Çiçəklərin dilini.

Güllər özü də bir gül,
Güllərin saçı sünbül.
Ətirli bağçalarda
Güllər nəğməli bülbül.

ŞADLIQ NƏĞMƏSİ

Gəlin, quşlar, kəpənəklər,
Sarı-qırmızı çiçəklər,
Gəlin, yarpağı ipəklər,
Yerdə şadlanaq, şadlanaq,
Bir də şadlanaq, şadlanaq.

Deyin xallı kəpənəyə,
İşıldayan hər böcəyə,
Bu axşam uçmasın göyə.
Yerdə şadlanaq, şadlanaq,
Bir də şadlanaq, şadlanaq.

Göyün parlaq ulduzları,
İşıq saçar gecəyarı.
Şadlıq edək biz də barı.
Yerdə şadlanaq, şadlanaq,
Bir də şadlanaq, şadlanaq.

DÜŞƏRGƏ NƏĞMƏSİ

Sabah səhər gedirik
Düşərgəyə, yaylağa.
Dəstəmizlə birlikdə
Dağlara dırmanmağa...

Dalğalansın bayrağım,
Alovlansın ocağım.
Şeypurumun səsindən,
Gurlasın dərəm, dağım!

Uzaq yollardan keçib,
Dolaylardan qalxırıq.
Biz özümüz bir aləm,
Özümüz bir baharıq.

Çağırır döyüş məni,
Səsləyir həyat məni.
Ağaranda dan yeri,
Ana can, oyat məni!

MƏSTANIN BALALARI

Sevil bağa köçəndə
Məstanı da apardı.
Bağı görəndə Məstan
Gör nə tufan qopardı...
Gah ağaca dırmaşdı,

Gah divara dırmaşdı,
Gah damın üstə çıxdı,
Gah da çəpəri aşdı...
Qovdu ağ kəpənəyi,
Yoldu otu, çiçəyi...
Kərtənkələ, qurbağa
Qaçırdı sola, sağa,
Qarışqa dalında yük
Daşıyırdı yuvaya,
Gedirdi qarayüyrük
Elə bil ki, davaya...
Məstan təzə yerlərdə
Özünə yurd salmışdı,
Üç balası zənbildə
Yaddan çıxıb qalmışdı...
Gəzirdi həvəs ilə
Məstan evi, eşiyi,
Gözünə ilişəndə
Hərdən siçan deşiyi,
Marıtlayıb dururdu
Deşiyin qabağında.
Görün bir nələr vardı
Sevilgilin bağında;
Havada uçur arı,
Şütüyür kərtənkələ,
Tullanırdı qurbağa
Suyun yanında hələ...
Məstanın üç balası –
Şirxan, Tərxan və Orxan
Zənbildən baş qaldırıb
Miyoldayırdı yaman...

Məstan atıldı, düşdü,
Oynaqladı doyunca,
Qaçdı xiyabanları
Qaçdı lap bağ boyunca...
Qaçdı, oynadı, qaçdı

Hey sevinə-sevinə.
Bura heç bənzəmirdi
Axı şəhər evinə,
Hər yan açıq, bağ-bağat
Burda başqaydı həyat.
Məstan hey oynayırdı,
Birdən duruxub durdu...
Gördü düşməni sərçə
Oturubdur budaqda...
Suyu çoxdan qurumuş
Bir quyu vardı bağda.
Məstan tez atıldı ki,
Qalxıb sərçəni tutsun,
Ağacda cik-cik edən
Sərçəni boğub udsun...
Ancaq mayallaq aşıb,
Özü quyuya düşdü.
Qaranlıqdan, qorxudan
Onun qanı uyuşdu...
Quyuda hər yan qara,
Bir qaranlıq çökmüşdü
Elə bil divarlara...
Məstan lal-cim dayandı...
Qorxdu, ürəyi yandı...
Qışqırdı birdən Sevil.
Quyuya Məstan deyil,
O düşmüşdü elə bil...
– Gəlin, gəlin, ay aman,
Quyuya düşüb Məstan...
– Az atılıb-düşəydi, –
Deyə deyindi nənə,
Ürəyində acıdı
Ancaq Məstana yenə.
Yığıldılar qonşular
Dərin quyu başına,
Bir kəndir bağladılar
Lap quyunun daşına.

Kəndirin də ucuna
Bağladılar bir zənbil,
Zənbilə ət və çörək
Qoyub salladı Sevil...
Salladı ki, quyuya –
Məstan yeməyi görcək
Tez zənbilə girəcək...
Lakin Məstan baxmadı
Zənbildəki şeylərə.
Bir məsləhət verirdi
Quyu başında hərə...
Sevil xeyli səslədi,
Çox çağırdı Məstanı,
Məstan isə elə bil
Unutmuşdu dünyanı...

Nə çörəyə, nə ətə
Yaxın dururdu Məstan...
Nənə yerindən qalxıb
Yaxın gəldi bu zaman,
Pişik balalarını
Həmin zənbilə yığdı...
Şirxan, Tərxan və Orxan –
Üçü bir yerə sığdı...

Salladılar yenidən
Quyuya bu zənbili.
Elə bil ki, Məstanın
Birdən açıldı dili.
Balalarını gördü,
Cumub zənbilə girdi...
Elə bil ki, yadından
Çıxdı bayaqkı dərdi...
Körpələri yaladı,
Miyoldadı o ki var...

Bu zaman yuxarıdan
Kəndiri tez dartdılar

Çıxartdılar Məstanı,
Yanında balaları...
Gördü Sevili Məstan,
Atıldı ona sarı.
Ana, bala pişiklər
Hey yalaşıb doydular,
Kor quyunun ağzına
Uşaqlar daş qoydular.

GÜNƏŞİN CAVABI

Əlində sədəfli saz,
Budur, gəldi gözəl yaz.
Ucaldıb şən səsini,
Oxudu nəğməsini:
"Mən baharam, mən yazam
Şux nəğməli bir sazam.
Məndə açar gül-çiçək,
Əlvan rəngli kəpənək
Qanad çalar sinəmdə,
Hər nə desən var məndə!
Bağçaları gəzərəm,
Ağacları bəzərəm.
Açar lalə, bənövşə,
Yaşıl don geyər meşə.
Sular daşar, sel gələr,
Tamaşaya el gələr –
Hamı çıxar çəmənə,
Bahar deyərlər mənə.

Sağ gözüyəm mən ilin,
Fəsillər, bunu bilin!"
İsti yay acıqlandı,
Birdən alışdı, yandı.
Ucaldaraq səsini,
Oxudu nəğməsini:

"İstiyəm mən, yayam mən;
Ən ləzzətli ayam mən.
Məndə tezdən hər səhər
Gözəl quşlar ötüşər.
Hamı gündə qaralar,
Sünbüllər də saralar.
Sarı buğda bol olar,
Qarlı dağlar yol olar.
Mənəm ilin sağ əli,
Fəsillərin gözəli!"

Yayın ömrü bitmişdi,
Payız gəlib yetişdi.
Ucaldaraq səsini,
Oxudu nəğməsini:
"Mən gələndə hər səhər
Sərin küləklər əsər.
Köynəyi sarı mənəm,
Bağların barı mənəm.
Heyva məndə, nar məndə,
Hər nə desən var məndə.
Çəhrayı və ağ alma,
Qırmızıyanaq alma,
Sarı, şirin armudlar,
Məndə əzgil, üzüm var.
Bahar nədir, yay nədir?
Bol meyvələr məndədir.
Ağappaq pambıqlar da
Açılar tarlalarda.
Mənəm ilin sağ əli,
Fəsillərin gözəli!"

Saqqalı ağ, saçı ağ,
Ağacda dayanaraq
Gəldi qocalmış baba,
Şaxta baba, qış baba.
Ucaldaraq səsini,

Oxudu nəğməsini:
"Mən gələndə yağar qar,
Məndə min cür oyun var.
Şirin qar-top oyunu
Sevər uşaqlar bunu,
Məndə nələr var, nələr!
Sevər məni nənələr.
Nəvələri beşikdə,
Sevər məstan pişik də.
Soyuq qış axşamında
İsti soba yanında
Nağıl deyər nənələr,
Qulaq asar nəvələr.
Budur sözün lap düzü –
Mənəm ilin sağ gözü!"

Hərə dedi özündən:
"Hamıdan yaxşıyam mən!"
Düşdü yaman vur-haray,
Qorxudan gizləndi ay,
Ulduzlar qaldı heyran.
Səhər açılan zaman
Bu davanı eşidib
Gülümsədi al günəş, –
Bütün fəsillər gözəl,
Yaxşıdır öz yerində;
Yay, payız, qış və bahar –
Bu vətən cllərində.

SON İLLƏRİN ŞEİRLƏRİ

MƏHƏBBƏTİM BÖLÜNMƏDİ....

Birinci nəvəm oğlandı,
Bir dünya sevinc gətirdi
anadan olanda.
Ürəyimdə əvvəllər duymadığım
bir məhəbbət oyandı.
Ağlayanda,
ürəyimin başı sanki sökülürdü.
Gülüşündən hər tərəfə
qucaq-qucaq
işıq, sevinc tökülürdü.
Düşünürdüm:
Bir nəvəm də olsa,
Onu sevmək üçün
Qəlbimdəki məhəbbəti
Necə yarı bölərəyəm?
Ağlayanda kədərlənib
Qımışanda sevinəcək,
güləcəyəm...
Sonra bir qız nəvəm oldu,
Gözləri göy, üzü göyçək,
Yanaqları dağ laləsi,
Dodaqları incə çiçək...
Qələm qaşı çatılanda,
Ala gözü süzüləndə,
Hərdən incik baxıb mənə
Dodaqları büzüləndə
Qəmlənirdim dərin-dərin.
Günlərimə çiçək-çiçək